NÜSXƏ № 1

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## № 199-9

**Bakı şəhəri,** « 24 » may 2016 il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 139-6 nömrəli qərarı ilə təsdiq edilmiş "Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiyanın alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin növlərinin Siyahısı"nda dəyişiklik edilməsi barədə**

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 1 fevral tarixli 121-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 26 fevral tarixli 1810 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 139-6 nömrəli qərarı ilə təsdiq edilmiş "Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiyanın alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin növlərinin Siyahısı"nın 11-ci hissəsinə "binalara (otaqlara)," sözlərindən sonra "yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə" sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**